# YADDAŞDAN YAZILANLAR

## *Səxavət İldırım oğlunun «Yaddaşımın kəndi» tarixi-publisistik qeydlər üzərində düşüncələr*



*Əli Rza XƏLƏFLİ*

«Kredo» qəzetinin nəşrə başlamasından bəri onlarca, bəlkə, yüzlərlə kitaba ön söz yazmışam. Nəşr olunmuş kitablar haqqında rəylə qələmə almışam. Bir sözlə, həyatımın bir qərinədən çox zamanı kitablar arasında keçib. Müəlliflərlə ünsiyyətdə olmuşam. Əlbəttə, gənclərin sözə, sənətə hazırlıq yolu məni həmişə düşündürüb. Onların işə alışması, cəlb olunması üçün sərt tələblər qoymuşam. Amma elə müəllif və elə kitablar da olub ki, necə yazılmasından, hansı istedadla qələmə alınmasından asılı olmayaraq yazılmasına sevinmişəm. Müəllifin yazı təcrübəsi olmasa belə, müəyyən zaman ötdükdən sonra yaddan çıxacaq, yaddaşlardan itəcək faktları, hadisələri yazdığına görə həmin şəxsə minnətdar olmuşam. Sevinmişəm ki, xalqın başlandığı yerdən, necə deyərlər, Vətənin lap qurtaracağından üzü bəri nəyisə itirməyək deyə yazıya gətirən müəlliflərin şərəfli xidmətini dəyərincə qiymətləndirmək lazımdır.

Açığı, Səxavət İldırım oğlunun (Doşulunun) «Yaddaşımın kəndi» tarixi-publisistik qeydlərini vərəqləyəndə qəribə hisslər keçirdim. Etiraf edirəm ki, yaşının müəyyən məhdudiyyətlər yaratdığı bir vaxtda onu nə məcbur edib ki, ağır zəhmətə qatlaşmın, öz kəndi haqqında kitab hazırlasın.

Səhifələri çevirirəm. Bildiyim və bilmədiyim hadisələr, faktlar bir-bir çözələnib gözümün önündən keçir. Gözümü mətndən ayıran kimi bir qərinə əvvəl baş verənlər düşüncəmdə canlanır, sanki unutduğum bir kəndin olayı məni ittiham edir: «Məni niyə indiyə qədər unutmusan. Axı sən bizim yoldan keçib Quşçulara qalxardın. O çinarın, dağ çeşməsinin üstündən boylanıb bizi də seyr edərdin - bağlı, bağatlı Doşulu kəndini».

O qədər də çox qalın oymaq deyildi. Məhdud təsərrüfat imkanlarına görə adamlar rayon mərkəzində məskunlaşır, burada işləyirdilər. Elələri də vavrdı ki, elə rayon mərkəzinə gündüzlər işə gəliş, axşamlar kəndə - Doşuluya qayıdırdı. Rayon mərkəzində məskunlaşıb burada qulluq mövqeyi tutub işləyənlərdən biri də Səxavət İldırım oğlu Məhərrəmov idi. Mənim onunla ilk gəncliyimdən - ali məktəbi bitirib təyinatla Cəbrayıla qayıtdığım günlərdən başlamışdı.

Səxavət müəllim rayon təhsil şöbəsində metodist müəllim idi. Səhv etmirəmsə ibtidai siniflər üzrə mütəxəssis kimi təhsil şöbəsində çalışırdı. Sakit, öz fikirlərini təmkinlə izah eləməyi, hər hansı bir məsələyə səbirli yanaşmağı ilə qarşısındakı müsahibini də anlaşma mövqeyində saxlaya bilirdi. Səliqəli geyimi aydın, mədəni davranışını sanki tamamlayırdı.

Beləcə illər ötdü, gərgin zamanlar keçdi, ağır qaçqınlıq, köçkünlük həyatı, nəhayət, qanlı müharibə, düşmən üzərində zəfər çalmağımız... bütün bunların hamısını gördük. Başqa sözlə, Qarabağın taleyinə şahidlik etdik. İşğaldan azad olunan Qarabağa səfərim dostum, Qarabağ döyüşçüsü, müharibə veteranı Qəşəm Məmmədovla birgə oldu. Quşçulara qalxdıq. Bəzən mənzərəni yuxarıdan daha aydın görmək olur. Qışlaq, Doşulu, Süleymanlı, Qaracallı, Balyand... bu ərazilərə bizim camaat Güney adı vermişdi.

Hörmətli yazıçımız, filoloq alim Fazil Güneyin «Qarabağ» romanını oxuyanda bir daha xəyalın həmin yerlərə səyahət etmişdim. İnsafən, bu kəndlərin müəllimləri Cəbrayıl rayonunun, eləcə də bizim kəndin, bir sözlə, dağ kəndlərinin maariflənməsində əvəzsiz xidmətləri olub. Yəni Güney camaatının mənəvi mühiti mənə çox doğmadır. Qohumlar var, dostlarım var... Sıx ünsiyyət bağladığım insanlar əslində, mənim yaddaşımı qoruyub, indii düşüncələrimin yazıya gətirilməsinə rəvac verən əsas amillərdəndir. Sözüm ordan gəlirdi ki, Quşçulardan - Alban məbədinin yanından dayanıb üzü aşağı baxırdım. Qədim Albaniyadan, Türk yurdundan qalan kəndin xarabalıqları gözlərimin önündə idi. Amma istər-istəməz üzü aşağı nəzərlərim gəzirdi. Dağılmış Güney kəndlərini görmək ürəkağrıdıcı mənzərə idi. Şübhəsiz, Doşulu da istisna deyildi.

Doşulu kəndinin adamları istiqanlı, mehriban, qonşuluq qədri bilən insanlardır. Cəbrayıl rayonunda uzun müddət rəhbər vəzifələrdə işləmiş Yaqub Hüseynov yadımdadır. Hündürboy, tökməbədən kişi idi. Meksikan şlyapası ona xüsusi görkəm verirdi. Xoş əhvallı, məzəkədə söhbətcil adam təsiri bağışlayırdı. Yaxşı zarafatları, deyib-gülməyi də vardı. Bunlar mənim ilk gəncliyimdən yaddaşıma hopmuş izlərdir. Onun oğlu Vaqif Hüseynovu da yaxşı tanıyıram. Hələ Gənclər Təşkilatında işlədiyi vaxtlar taytuşlarına, birgə çalışdığı təşkilatda həmkarlarına, dostlarına səmimi, doğma münasibətilə seçilirdi. Sonralar ikinci ali təhsil aldı, polis orqanlarına işə göndərildi. İndiki kimi yadımdadır. Cəbrayıldan axırıncı gecə - işğaldan bir gün əvvəl binanın zirzəmisində qalmış kimsəsiz qocaları çıxarmaq üçün polis şöbəsinə getdim. Şəhər ölü sükutuna qərq olmuşdu. Vaqif Hüseynov məni görəndə təəccübləndi. Polis şöbəsində də mən onu tək gördüm. Rayon ətrafında gərgin döyüşlər gedirdi. Şübhəsiz rolis şöbəsinin rəisi Vaqif Məhərrəmov və digər polis əməkdaşları düşmənə müqavimət göstərməkdə idilər. Səhər necə açılacaqdı, hələ onu kimsə bilmirdi. Vaqif Hüseynov polis şöbəsinin həyətindəki növbətçi avtobusu mənim ixtiyarıma verdi. Bizimlə qonşuluqda sakin olan rabitə işçisi Nizami




ilə birlikdə həmin maşınla həyətə gəldik. Və qocaları, kimsəsizləri ərazidən çıxara bildik.

Bu təfərrüatı davam etmək istəmirəm. Çox ağrılı gecə keçdi. Sözüm ondadır ki, Vaqif Hüseynov yaddaşımda Doşulunun siması kimi qalan adamlardan biridir. Yeri gəlmişkən, həmin dövrün hadisələrini xronikadan çıxarıb ədəbi-bədii müstəviyə gətirmək haqqında çox düşünürəm. Rəşid Məmmədovun (sonralar avtomobil qəzasında həlak oldu), polkovnik Vaqif Məhərrəmovun, özünümüdafiə batalyonunun komandiri Vahid Alışovun... gərgin dövrlərdəki fədakarlıqlarını sadəcə soyuq nəzərlərlə yaddaşın arxasınna keçirmək olmaz. Görək, bəlkə, ömür qismət oldu, yazıya gəlməyimiz üçün...

Səxavət İldırım oğlunun kitabında adı çəkilən Vaqif Əlisoy da əslən Doşuludandır, baxmayaraq ki, rayon mərkəzində doğulub-böyümüşdü. Təqribən yaxın dövrdə oxumuşuq, bir yataqxanada qalmışıq. Ünsiyyətimiz və münasibətimiz uzun müddət qırılmayıb. O, hərəkatın fəallarından biri kimi tanınırdı.

Ümumiyyətlə, Doşulu camaatı yola gedən, qonşuluğa mehriban, ünsiyyətcildir. Bu kənddən olan az-çox ünsiyyətim, hətta dostluq səviyyəsində əlaqələrim olan çoxları var. Əlbəttə, hər kəsi bir-bir xatırlamaq da çətindir. Ancaq Bəylər həkim burada xüsusi yadıma düşür. Hələ işğaldan əvvəl tez-tez görüşərdik, çayxana söhbətlərimizin əsas iştirakçılarından biri idi. Dostum Amalxan həkimlə sıx bağlılığı vardı - hardan, necə, yadımda deyil. Amma cəmiyyətin həyatı ilə bağlı mənim mövqeyim həmişə onu razı salırdı. Xüsusilə, Cəbrayılın Azadlıq meydanındakı mitinqlərdəki çıxışlarım çoxlarının marağına səbəb olurdu, eləcə də Bəylər həkimin.

Bir dəfə çıxış edib tribunadan düşəndə birinci Səxavət müəllim mənim əlimi sıxdı, ikinci də Bəylər həkim. İlk dəfə idi ki, az qala beş min nəfərlik meydanın qarşısında çıxış edirdim. Mənim nitqlərimi dinləyənlər yaxşı bilir; emosional, hətta bəzən pafoslu da danışıram. O dövrdə kütlə məhz öz istək və arzularını emosianal nitqlərdə daha yaxşı qavrayırdı. Demək istəyirəm ki, o, ilk çıxışdan sonra Səxavət müəllimin və Bəylər həkimin əlimi sıxıb, uğurlu nitqə görə təbrik etmələri mənim üçün böyük mükafat idi. İaişə işçisi Əli var idi. Onu da çoxdandır görmürəm. Nə qədər mehriban, insanlara necə doğma yanaşması vardı.

Səxaət müəllim bu kitabı xeyli əvvəl redaksiyaya əlyazma halında təhvil vermişdi. Amma əlyazma üzərində iş üçün onun ayrıca köməyinə ehtiyac vardı. Uzun müddət telefon əlaqəsi saxlaya bilmədik. Dostum Vaqif Hüseynovun (Cəbrayılda polis şöbəsində rəis müavani işləyirdi) anasının qırx mərasimində onu gördüm. Hal-əhval zamanı məlum oldu ki, ilsult keçirib, uzun müddət xəstə olub. Şükür ki, indi yazşı idi. Hərəkəti bərpa olunmuşdu. Ən başlıcası, məqsədindən, məramından dönməmişdi. O, kitabının üzərində işini davam etdirmək istəyində idi. Bu, məni sevindirdi.

Onsuz da belədir, heç nə asan başa gəlmir. Gözümün qarşısında fədakar bir insannın, insanlıq naminə yaşadığı həyatın mənzərəsi göründü.

Nə isə... hər bir insan maraqlı bir kitabdır. Əslində, Səxavət müəllimin müqəddəs missiyası bu çoxlu kitabı, böyük kitabı bir araya gətirmək, həcmcə bir kiçik kitaba sığdırmaqdan ibarətdir. Və buna, şübhəsiz, nail olub.

Qısası, Səxavət İldırım oğlu doğma kəndini yaddaşından ev-ev, nəsil-nəsil, adam-adam keçirir. Bildiyi faktları uzlaşdırmağa çalışır. Onun yazdıqlarının əsas dəyəri ondan ibarətdir ki, bir az keçəndən sonra yanmış arxivləri də olmayan Qarabağın nə qədər nəsil, ad, ünvan xəzinəsi tamam unudulub gedəcək, yaddaşlardan silinəcək.

*(Davamı 7-ci səhifədə)*

*(Əvvəli 6-cı səhifədə)*

Səxavət müəllim yeri gəldikcə təkcə öz kəndi ilə bağlı məlumatlara qapanıb qalmır. İşğal ərəfəsində rayonun yaşadığı mənəvi gərginliyi, o vaxtkı dözülməz şəraiti, ən başlıcası, müdafiənin mərkəzdən düzgün təşkil olunmaması kimi məsələlərə də qədərində münasibət bildirir.

Açığı, Səxavət müəllim qarşısına hansısa tələblərə uyğun bir kitab yazmaq məqsədi qoymayıb. Bildiyi, tanıdığı adları yazıya gətirməyə çalışıb. Faktları, hadisələri yazıdan keçirməklə gələcək nəsillərin yaddaşına ötürmək istəyib. Bu, sözün həqiqi mənasında, bir vətənpərvərlik, xalqsevərlik istəyindən qaynaqlanan əməldir. Axı elə məsələlər var ki, onu Səxavət müəllimdən başqa kimsə çətin ki, indi bilsin. O, tarixin şahididir. Sonrakı nəsillər isə işğaldan sonra dünyaya gələn gənclər, cavanlar, çox güman ki, o mühitdən artıq çoxdan ayrılıblar. Əlbəttə, hamını demək olmaz.

Akademik Ziya Bünyadov deyirdi ki, ən yaxşı məndə hər kəndin, ərazinin öz sakininin bildiyidir. Zənnimcə, bu, bir mənəvi vəsiyyətdir. Və Səxavət İldırım oğlunun timsalında bu vəsiyyətin əmələ çevrilməsini, icrasını görmək «Yaddaşımın kəndi» kitabını vərəqləyən hər kəsdə xüsusi bir məmnunluq doğuracaq.

Səxavət müəllim kitabın lap əvvəlində bir siyahı verir, adlar çəkilir və hər bir adın qarşısında telefon nömrələri qeyd olunub. Düşünürəm ki, bir kəndin ağsaqqalının, müdrikinin xeyirxah niyyətini təkcə başa düşmək yox, həm də yüksək qiymətləndirmək lazımdır. Demək, o istəyir ki, insanlar - doğma kəndinin adamları, xüsusilə, yeni nəsillər bir-birini arasınlar, axtarsınlar, xoş gündə olduğu kimi, dar gündə, çətinlikdə də bir-birinə üz tutsunlar. Yəni yaşamaq üçün mənəvi stimul olsun. İnsanlar arasında yeni ünsiyyət körpüsü qurulsun.

Düşünürəm ki, bu istək ömrün səkkizinci onilliyinin zirvəsindən ötüb keçənlərə boylanan bir ziyalının gələcək

# YADDAŞDAN YAZILANLAR

## *Səxavət İldırım oğlunun «Yaddaşımın kəndi» tarixi-publisistik qeydlər üzərində düşüncələr*

nəsillərə vəsiyyətidir. Sanki rəhmətlik Şəhriyarın sözləri də burada yaddaşa gəlir: «Bir-birizdən ayrılmayın amandı». Bu misrada ifadə olunan ağrı, acı, vəsiyyət ruhu Səxavət müəllimin istəyi ilə üst-üstə düşür.

Səxavət müəllim Doşulu kəndində yaşamış və zaman-zaman əvəzlənmiş nəsillərin tarixi xronikasını da xatırlayır. Nəsil ağacının kökündən başlayaraq üzü bəri gəlir. Doğma kəndinin Doşu kişinin adı ilə bağlı keçmişini yada salır. İndi bizim nəzərimizdə, bəlkə də Doşulunu kiçik kənd adlandırmaq səhv olmaz. Amma dəyişən nəsillərin adlarını bir-bir nəzərdən keçirdikcə tarixin hansı yolla, necə getdiyini də təsəvvür etmək çətin deyil.

«Otuz il əsirlikdə» adlı qeydləri yazmaq Səxavət İldırım oğluna asan başa gəlməyib. Torpaq ağrılarını, insan faciələrini, işğal dəhşətlərini yazıya almaq kimsəyə asan gəlməsin. Yaxud kəndin ulu keçmişi ilə bağlı qeydlər də çox maraqla oxunur.

Mən yuxarıda qeyd etdim, Səxavət müəllimin yazılarında səlis nitq, dəqiq ardıcıllıq aramağa lüyum yoxdur. Amma o, qarşısına qoyduğu əsas missiyanı uğurla yerinə yetirib; bu kitabı hər kəm əlinə götürüb vərəqləsə, Doşulu kəndini demək olar ki, tam aydınlığı ilə qavraya biləcək. Özü də təkcə kəndi yox, ayrı-ayrı obrazları, ədəbiyyətə köçmüş insanları, bu günün yeri, yurdu unutmayan müdrikləri, gəncləri, cavanları, demək olar ki, yaxından tanıyacaq.

Hər kəs imkanı daxilində yurd üçün nəyi isə etməyə çalışırsa, elə onun vətəndaşlıq borcu da odur.

Düşünürəm ki, yaşının ahıl çağında, səhhətinin yaratdığı məhdudiyyətlərin çətinliklərinə baxmayaraq, o, çox dəyərli bir iş görüb.

Yazılan sənəd olur, tarix olur. Hansısa zamanda bir həqiqətin axtarılması üçün qaynağa, mənbəyə çevrilir.

«Yaddaşımın kəndi» kitabı Səxavət İldırım oğlunun yaddaşından yazılanlardır. Ancaq hiss olunur ki, o, hər bir faktın, hadisənin dəqiq və doğru-düzgün yazılması üçün zəhmət çəkib.

Zəhmət isə asanlıqla itmir.

***19.12.2025***